UOT 32:93/94

ÜLVİYYƏ HÜSEYNOVA
Azərbaycan Dillər Universiteti
Qərb ölkələri üzrə Regionşünaslıq kafedrası, baş müəllim
u.huseynova@adu.edu.az

BÖYÜK BRİTANİYADA MƏTBUATIN ÜMUMİ SƏCİYYƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/207-210

Qəzetlər hər zaman britaniyalıların həyatında mühüm rol oynayıb. Britaniyada digər ölkələrlə müqayisədə daha çox qəzet alınır. Onları qəzet oxumaq ənənəsinə görə Avropada yalnız skandinaviyalılarla müqayisə etmək olar. Britaniya qəzetləri Sun, Mirror, Mail, Express, Telegraph isə ən çox satılan qəzetlərdir. Star qəzeti isə Avropanın ən çox oxunan qəzetlərinin ilk onluğuna daxildir. Halhazırda qəzet oxuyanların sayı azaldığı halda qəzet oxumaq vərdişi bütün insanlar üçün "əsas vaxt aparan fəaliyyət" olmuşdur. Belə ki, insanların boş vaxtı artdıqca qəzetlərin də istehlakı artmağa başlamışdır. Aparılan araşdırmalar qəzet oxumağın son vaxtlara qədər "status qazandıran fəaliyyət" kimi baxıldığını aşkar etdi. Qəzetləri oxuyanlar isə mədəni və siyasi dəyərlərinə dair ziddiyyətli fikirlərə məruz qalıblar. Qəzetlərin formalaşmasında və inkişafında Britaniya cəmiyyətinin xüsusiyyətləri, onun institutları və orda yaşayan xalqlar müəyyən rol oynamışdır.

Açar sözlər: qəzet, mətbuat, hakimiyyət, xəbər.

Giriş. 1475-ci ildə ingilis Üilyam Kakston (William Caxton) hələ Almaniyada olarkən ingilis dilində ilk kitabı - "Recuyell of the Historyes of Troye" nəşr etdi. Bir il sonra İngiltərəyə qayıdan Kakston (Caxton) Böyük Britaniyada, Westministerdə çap mediyasının əsasını qoydu. İlk vaxtlarda kilsə və dövlət yeni vasitəni öz hakimiyyətləri üçün potensial təhlükə hesab etdikləri üçün mətbuatda lisenziyaların verilməsinə ciddi nəzarət edirdilər. Senzuraya baxmayaraq qitədən alman dilindən ingilis dilinə tərcümə olunaraq ötürülən məlumatlar radikal idi. Gündəlik ingilis dilindən istifadə olunması həmin vaxt dominant rol oynayan, yerli əhalinin əksəriyyətinin bilmədiyi, kilsə və dövlətin rəsmi dil elan etdiyi Latın dilinə və "dini mətnlərin yerli dillərdə yayılmasına və çapına "qadağa qoyan Roma Katolik Kilsəsinin hakimiyyətinə birbaşa meydana oxumaq demək idi [3]. İlk dəfə olaraq əhalinin əksəriyyəti tərəfindən anlaşılan dini və siyasi fikirlər yayılmağa başladı və ən önəmlisi isə nəşriyyatda ortodoksluğu təbliğ edən çoxlu saylı fikirlər də əks olunmağa başladı.

İlk xəbərlər toplusu və ingilis dilində həftədə bir dəfə nəşr olunan "Curanto" 1618-ci ildə Amsterdamda nəşr olunmağa başladı və 1621 –ci ildən isə İngiltərədə nəşr olunmağa başladı. XVII əsrin sonlarına yaxın isə İngiltərədə artıq milli mətbuatın formalaşması üçün zəmin var idi. Əhalinin savadlılıq səviyyəsi artmış, daha yaxşı yollar çəkilmiş, iqtisadi inkişaf baş vermiş, çap texnikası ilə tanışlıq artmışdı.1702-ci il, 11 martda nəşr olunmağa başlayan "Daily Courant" müntəzəm olaraq çap olunan ilk gündəlik qəzet hesab olunur. XVIII əsrdə ortalarından qəzetlərin sayı artmağa başladı və onların əksəriyyəti müxtəlif partiyaları müdafiə edirdilər. Məsələn "Daily Courant" viqləri, rəsmi hökumət qəzeti olan "London Gazette" isə kraliyyəti və icraedici hakimiyyəti dəstəkləyirdi [5]. Təhsilin artması və bazarın genişlənməsilə qəzetlər daha da ucuzlaşdı. Ictimai maraq doğuran məsələlərin müzakirəsi və yayılması mətbuat tariixində XVII əsrin ortalarına təsadüf edən önəmli bir mərhələdir. Məlumat mübadiləsində ictimai fikrin dövrəyə girməsi demokratiya üçün çox əhəmiyyətlidir. Filosof Jurgen Habermas bildirir ki, "azad vətəndaşların fikirləri, söhbətləri ictimai fikrin özüdür" 1650-ci illərdən 1670-ci illərin ortalarınadək Londonda ilk, dəbli "coffee-house"lar meydana gəlməyə başladı. Bu "coffee house"lara oxumaq üçün qəzetlərin və jurnalların nüsxələri qoyulur, syasi və sosial hadisələr geniş müzakirə olunurdu. 1680-cı ildən 1730-cu ilədək "coffee-house"lar ictimai fikri formalaşdıran, ictimai fikrə təsir göstərən ən güclü vasitə idi [1].1675-ci ildə II Charles onları bağlatdırmağa çalışsa da, onun siyasətindən narazı olan əhalinin etirazından qorxub, fikrindən daşındı. 1870-ci ildən sonra təhsilli insanların sayının artması, sahibkarlara qəzet bazarını inkişaf etdirməyə şərait yaratdı. Bu isə öz növbəsində, əvvəllər ancaq orta və yuxarı təbəqənin istifadə etdiyi qəzet və jurnalların məşhurlaşması ilə

nəticələndi. Mətbuatdan təkcə məlumatların ictimaiyyətə ötürülməsi üçün deyil, həm də əyləncə məqsədilə istifadə edilməyə başlandı ki, bu da qəzet sahibkarlarına kifayət qədər gəlirlərini artırmasına imkan yaratdı. XIX əsrin sonu ilə müqayisədə XX əsrin əvvəllərində çap evlərinin sayı sürətlə artdı və reklamın inkişafı başladı. Artıq nəşr evlərinin sahibləri də, qəzet və ya jurnalların cəmiyyətdə hansı ictimai və siyasi rol oynadığını başa düşürdülər. Ölkənin savadlı əhalisi üçün kifayət edəcək tirajla çap edilən ilk Britaniya qəzetləri XVIII əsrin əvvəllərində peyda oldu [5]. Sonralar isə "The Times" (1785), "Observer" (1791) və "Sunday Times"(1822) kimi qəzetlər çap edilməyə başladı.Lakin bu qəzetlərin əksəriyyəti əsasən Londonda cəmləşmiş, sayı o qədər də çox olmayan savadlı əhaliyə xidmət edirdi. XX əsrdə sayı və tərkibi, nəşr edilən qəzetlərin tipinin müəyyən olunmasına təsir göstərməyə başladı. İlk milli məşhur qəzetlər artıq ancaq bazar günləri çap olunmağa başladı.Məsələn :"News of the World" (1843) və "People" (1881). Onlar ucuz idi və fəhlə sinfinin savadının artması üçün nəzərdə tutulmuşdu. 1896-cı il, Mayın 4-də Alfred Hamswort Londonda "Daily Mail" –in nəşrinə başladı və bu qəzet orta təbəqə üçün nəzərdə tutulmuşdur .Eyni zamanda ali təbəqə üçün "keyfiyyətli" qəzetin daha münasib əvəzedicisi idi.1903-cü ildə Hamswort "Daily Mirror"-ın nəşrinə başladı.Bu qəzet fəhlə sinifi üçün nəzərdə tutulmuşdu və qəzet bazarında çox məşhur idi. Qısa zaman çərçivəsində hər iki qəzet bir gündə milyondan çox tirajla satılmağa başladı. XX əsrin başlanğıcını, kütləvi tirajla buraxılan qəzetlərlə yanaşı, həm də Hamswort və Artur Pirson kimi qəzet sahibkarlarının da dövrü adlandırmaq olar. Qəzet sahibkarları arasında bazarda daha çox pay qazanmaq ugrunda boyuk rəqabət var idi. Sonralar "Daily Express" adlanan Pirsona məxsus "Morning Herald", orta təbəqə üçün nəzərdə tutulan "Daily Mail" qəzeti ilə rəqabət aparmaq məqsədilə 1900-cü ilə nəşr edilməyə başlamışdır [6]. 50-ci illərdə "Daily Express" istiqamətini dəyişərək daha çox oxucu cəlb etmək məqsədilə fəhlə sinfinə xidmət göstərməyə başladı. XX əsrin əvvəllərində "Daily Mirror" ən çox satılan ümummilli qəzetə çevrildi Qəzet fəal şəkildə leybolistləri müdafiə etməyə başladı. Tez bir zamanda siyasiləşən "Daily Mirror" fəhlə sinfinə məxsus oxucuların tez və rahat oxuması üçün xüsusi hazırlanmışdı."Daily Herald" (1911) da leybolist partiyasının mövqeyini dəstəkləyirdi. Lakin 1964-cü ildə bu qəzetin sahibi dəyişdi və qəzet "Sun" adlandırıldı. Bundan sonra artıq qəzetin cəmiyyətdəki ictimai və siyasi hadisələrə münasibəti əhəmiyyətli dərəcədə dəyişdi. "Sun", "Express" və "Mirror" qəzetləri arasında rəqabət bugün də davam edir: qəzetlərin hər biri "sarı" mətbuat bazrında daha çox pay əldə etməyə çalışır. İndi daha böyük korporasiyalara və ya nəşriyyat evlərinə malik olan qəzet sahibkarları arasında əvvəlki kimi mübarizə gedir [3]. XX əsrin əvvələri ilə bugün arasında yeganə fərq məşhur qəzetlərin keyfiyyət məsələsidir.Erkən məşhur qəzetlərin uğuru qismən əhalinin savadlılığı, qismən də fəhlə sinfinin həqiqətən bilik və məlumata ehtiyacın olması və leybolist partiyasının yaranması ilə fəhlələr arasında siyasi savadlılığın artması ilə bağlı idi. Təbii ki, qəzet sahibkarları belə böyük bazardan xeyli gəlir əldə etməklə yanaşı, tələbatı da ödəyirdilər. Kütləvi qəzetlərin qiyməti və məzmunu fəhlə sinifi və orta təbəqə üçün nəzərdə tutulmuşdu. Bu istiqamət çoxlu sayda reklamçının diqqətini özünə cəlb etdi və qəzet sahibkarları müasir çap metodlarından və geniş yayılmış paylama sistemindən istifadə edərək qəzetləri daha ucuz çap edə bilirdilər. XX əsrin əvvəllərində ümummilli qəzetlərin dövriyyəsi əhəmiyyətli dərəcədə artdı. Belə ki, 1920-ci ildə ölkə ərazisində gündəlik 5.5 milyon nüsxə qəzet satılırdı.1973-cü ilədək bu rəqəm 17 milyona qalxdı. Lakin bu illər ərzində qəzet və başqa mətbu nümunələri əvvəlcə radio və kino , daha sonralar isə televiziya ilə rəqabət aparırdı. Baxmayaraq ki, ümumilli və digər qəzetlərin dövriyyəsi böyük idi, 70-ci illərdə bu qəzetlərin gündəlik satışında böyük enmə hiss olunurdu. Bəzi qəzetlərin dövriyyəsi dəyişməz qalsa da, bir çox qəzetlərin dövriyyəsi rəqabətlə əlaqədar olaraq qalxıb, enirdi. Nəticədə bir neçə qəzet bağlandı. Lakin digər ölkələrlə müqayisədə Böyük Britaniyada adambaşına satılan qəzetlərin sayı daha çoxdur [2].

Məlumdur ki, 15 yaşdan yuxarı əhalinin üçündən iksi gündəlik çap olunan milli qəzet, dördündən üçü isə bazar günü qəzetləri oxuyur. Oxucularının sayı dövriyyəsindən çox olan milli qəzetlər həftə içi 14 milyon n ,bazar günləri isə 17 milyon nüsxə ilə çap edilir.Böyük Britaniyanın milli mətbuatına 11 ədəd gündəlik çap edilən və 10 ədəd bazar günləri çap edilən qəzetlər daxildir.Qəzet mərkəzləri və çap dəzgahları mərkəz Londonda yerləşir. Onların çoxu əvvəllər milli çap sənayesinin mərkəzi olan və Londonun mərkəzində yerləşən Flit Stritdə yerləşirdi.Amma indi artıq bütün qəzetlərin mərkəzi Londonun kənarlarına köçmüşdür [4]. Bu köçmənin səbəblərinə yüksək icarə haqqı, kəskin rəqabət və çapçıların həmkarlar ittifaqının yeni çap texnologiyasını qəbul etməməsi oldu. 70-80-cı illərdə bütün

qəzetlər xərclərini istehsal, çap sahəsində texnoloji inkişaf və ofisin idarəçiliyi ilə uyğunlaşdırmaq məcburiyyətində qaldı. Bazarda mövqeyi qoruyub saxlamaq məqsədilə bu kimi xərclərdən qurtulmalı oldular. İşçilərin əməkhaqqısı kimi böyük xərcləri azaltmaq məqsədilə çoxlu sayda adam işindən uzaqlaşdırıldı. Bütün bu vəziyyətlər qəzet sahibkarlarını eyni anda xərcləri azaldaraq, məhsuldarlığın artırılması üçün yollar axtarmağa məcbur edirdi. Bu prosesi sürətləndirməkçün yeni çap texnologiyasından istifadə işçilərin ixtisarına və həmkarlar ittifaqlarının sahibkarlara qarşı çıxması ilə nəticələndi. Bu isə öz növbəsində məhsuldarlığın kəskin aşağı düşməsinə gətirib çıxardı. Yeni çap metodları sayəsində jurnalistlər köhnə çap üsulundan xilas ola bildi. Bu əhəmiyyətli dəyişiklik sayəsində sahibkarlar daha az vəsait ödəməklə daha sürətli çap və yayma imkanlarına nail oldu. Həmçinin yeni metodlar onlara həmkarlar ittifaqının əvvəlki üstünlüyündən və istehsalın Londonda cəmləşməsindən xilas olmağa şərait yaratdı [1].

London xaricində regional qəzetlərin sahibkarları ilk olaraq Kyeni texnologiyanı təcrübədən kecirdi. Sonda isə London poliqrafiya sənayesinin onların yolu ilə getmək məcburiyyətində qoydular. "The Times" yeni təchizatı sınaqdan keçirmək istəsə də, həmkarlar ittifaqları buna razı olmadılar. Hətta həmkarlarlar ittifaqına etiraz olaraq, 11 ay (1979-80) qəzetin nəşri dayandırıldı. Lakin bu cəhd uğursuz oldu. Sonralar qəzet yeni sahibkara satıldı və o, həmkarlar ittifaqı ilə uzun sürən problemlərdən sonra bütün çapçıları işdən azad edərək, bu və özünün digər qəzetlərini mərkəzini Londonun şərqinə köçürdü. Burda artıq o, rahatlıqla yeni texnika ilə işləməyi bacaranları heyətə daxil etdi. Bütün bunlar həmkarlar ittifaqı tərəfindən narazılıqla qarşılandı və üzvləri yeni zavoda qarşı aksiya keçirməyə başladı. Digər qəzetlər də "yaşamaq" üçün "the Times"ın yolunu keçməli idilər. Yeni çap texnologiyası, təkmilləşdirilmiş bölgü sistemi və məhsulun istehsal dəyərinin azalması mətbuatda, ümumilikdə çap sənayesində gəliri artırdı. Digər kütləvi informasiya vasitələri ilə rəqabətə baxmayaraq, qəzet bazarı və çap məhsulları əvvəlki kimi artır. Böyük Britaniyada etnik azlıqlar da özlərinin qəzet, jurnallarını çap edirlər və hər keçən gün onların dövriyyəsi artır, keyfiyyəti isə daha da yaxşılaşır. Onlar arasında yəhudi, asiya, hind, çin və ərəb qəzetlərinin dövriyyəsi digərlərindən daha çoxdur [3]. Royters, əsası 1851-ci ildə qoyulan və Londonda yerləşən xəbər agentliyidir. Ənənəvi olaraq qəzetlər və jurnalistlər bu agentlikdən xəbər mənbəsi kimi istifadə edirlər. Çap məhsulları bazarında əvvəlki kimi rəqabət var və qəzetlər hələ də müxtəlif çətinliklərlə üzləşirlər. Lakin yeni qəzet yaratmaq fikrində olanları heç bir çətinlik qorxutmur. Məsələn,"Today" qəzeti 1986-cı ilin aprelindən başlayaraq çap edilməyə başlanıb və həm tiraj, həm də texnologiya ilə bağlı problemlərinin olmasına baxmayaraq hələ də nəşr edilir.Yeni "keyfiyyət" qəzeti "The İndependent" 1986-cı ilin oktyabrında çap olunmağa başlandı və titajının azalmasına baxmayaraq hələ də mövcuddur. "The Independent on Sunday" (1990) kimi bazar günü qəzetləri, həmçinin beçinci gün çap edilən "European" kimi qəzetlər uğurla işə başladılar və hələ də çap olunurlar [5]. Lakin bu illərdə nəşr edilən bəzi qəzetlər var ki,onlar elə tez bir zamanda da fəaliyyətlərini dayandırıblar.

Nəticə. Ümumilikdə ümummilli qəzetlər formatından və məzmunundan asılı olaraq "keyfiyyətli " və "məşhur" adlanmaqla iki növə bölünürlər. "Keyfiyyət" qəzetləri böyük formatlı vərəqlərdə çap edilir və dolayısı ilə milli və beynəlxalq xəbərləri çap etməklə yanaşı öz məqalə və qeydlərində cari siyasi və mədəni hadisələri şərh edir. "Kütləvi" qəzetlər isə formatı çox da böyük olmayan vərəqlərdə çap edilr və oxucuya nisbətən az aktual, daha çox qalmaqallı və sensasiyalı xəbərləri çatdırır. Bu növ qəzetlərin söz ehtiyatı çox məhduddur. Kütləvi qəzetlərdə reklam daha az olsa da, nüsxənin sayı çoxdur. Çox vaxt iddia edilir ki, Britaniya qəzetlərinin böyük əksəriyyəti sağ mərkəzçi meyillidirlər və Mühafizəkarlar partiyasına rəğbət göstərirlər. Bir neçəsi, məsələn, "Mirror" qəzeti Leybolistlər partiyasına, "Guardian" qəzeti sol mərkəzçi partiyalara rəğbət göstərir. "The Times" və "The Independent" qəzetləri isə özlərini müstəqil qəzet hesab edir.Təcrübədə isə britaniyalılar cari hadisələr barəsində qəzetlərin müxtəlif mövqeləri ilə üzləşirlər.

ƏDƏBİYYAT

1. Peter Golding, David Deacon, Jim McGuigan, Heather Purdey, Sarah Rawson "The Case of Great Britain", 2005.
2. Peter Humphreys "Media freedom and Pluralism in the United Kingdom" 2007

3. Barrès Baker, Brent Museum “An Introduction to the Early History of Newspaper Advertising”, 2006.
4. Georgina Born “Public Service Broadcasting and Digital Television in the UK, 2008.
5. Deirdre Kevin “Snapshot:regional and local television in the United Kingdom”, 2015.
6. Toby Mendel, Head of Law Programme Evan Ruth “Medıa Regulatıon In The Unıted Kıngdom”, 2019.

УЛЬВИЯ ГУСЕЙНОВА
Азербайджанский университет языков
Кафедра западного регионоведения, старший преподаватель

ОБЩАЯ ХАРАКТЕРИСТИКА БРИТАНСКОЙ ПРЕССЫ

Газеты всегда играли важную роль в жизни британцев. В Великобритании покупают больше газет, чем в любой другой стране. В Европе по уровню читательской традиции их можно сравнить только со скандинавами. Британские газеты Sun, Mirror, Mail, Express и Telegraph являются самыми продаваемыми. Газета Star входит в десятку самых читаемых газет в Европе. Хотя число читателей газет в настоящее время сокращается, чтение газет стало «главным занятием, поглощающим время» для всех людей.Таким образом, с появлением большего количества свободного времени у людей увеличилось и потребление газет. Исследования показали, что чтение газет до недавнего времени рассматривалось как «деятельность, повышающая статус». Читатели газет сталкиваются с противоречивыми взглядами на свои культурные и политические ценности. Особенности британского общества, его институтов и людей, живущих в нём, сыграли свою роль в становлении и развитии газет.

Ключевые слова: пресса, газета, власть, новости.

ULVIYYA HUSEYNOVA
Azerbaijan University of Languages
Department of Western Regional Studies, Senior Lecturer

GENERAL CHARACTERISTICS OF THE BRITISH PRESS

Newspapers have always played an important role in the lives of the British. In Britain, more newspapers are purchased than in any other country. In Europe, they can only be compared with the Scandinavians in terms of newspaper reading tradition. The British newspapers Sun, Mirror, Mail, Express, Telegraph are the best-selling newspapers. The Star newspaper is among the top ten most read newspapers in Europe. Although the number of newspaper readers is currently decreasing, the habit of reading newspapers has become a "main time-consuming activity" for all people. Thus, as people have more free time, newspaper consumption has also increased. Studies have shown that reading newspapers has until recently been viewed as a “status-enhancing activity.” Newspaper readers have been exposed to conflicting views about their cultural and political values. The characteristics of British society, its institutions, and the people living there have played a role in the formation and development of newspapers.

Keywords: press, newspaper, power, news.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Sevdagül Əliyeva, t.ü.f.d. Məmmədağa Baxışov.